**“Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndinə əsasən **qərara alır:**

“Pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 18, maddə 243; 1995, 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 385, 6, maddə 493; 1998, 2, maddə 70; 2000, 12, maddə 835; 2001, 3, maddə 143, 6, maddə 378, 11, maddə 674; 2002, 1, maddə 4, 8, maddə 463; 2004, 7, maddə 505; 2005, 3, maddə 152, 10, maddə 874; 2006, 1, maddə 3, 2, maddə 64, 3, maddə 219, 4, maddə 319, 11, maddə 933, 12, maddələr 1006, 1017, 1029; 2007, 7, maddə 712, 8, maddə 753, 11, maddə 1053; 2008, 3, maddə 158, 8, maddələr 699, 701, 10, maddə 886; 2009, 7, maddə 519; 2010, 3, maddə 166, 4, maddə 276, 11, maddə 935; 2011, 4, maddə 270, 6, maddə 474, 7, maddə 580; 2012, 7, maddə 647; 2013, 5, maddə 465, 6, maddə 619, 7, maddə 793; 2014, 4, maddə 323, 11, maddə 1335; 2015, 6, maddə 688) 6-cı maddəsinin birinci hissəsinin 1-ci bəndində “Azərbaycan Respublikası Prezidenti,” sözləri “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların, habelə Azərbaycan Respublikasının” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2017-ci il
671-VQD